**Əlillərlə bağlı görülmüş işlər**

2008-ci ildə 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Müharibə və Əmək Əlilləri üçün Pansionatda xeyriyyə aksiyası həyata keçirmişdir. Aksiyaya eyni zamanda sahibkar qadınları da cəlb etmişdir. Komitənin əməkdaşları Pansionatda məskunlaşan ağbirçək anaları qarşıdan gələn bayram münasibəti ilə təbrik edərək, onlara xoş arzularını bildirmiş və onların həyat şəraiti ilə yaxından tanış olmuşdur. Tədbir incəsənət ustalarının iştirakı ilə konsert proqramı ilə davam etmişdir. Sonda müharibə və əmək əlillərinə bayram sovqatları təqdim olunmuşdur.

2009-cu ildə 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Müharibə və Əmək Əlilləri üçün Pansionatda xeyriyyə aksiyası keçirilmişdir. Komitənin əməkdaşları Pansionatda məskunlaşan və yataq xəstəsi qadınları qarşıdan gələn bayram münasibəti ilə təbrik edərək onlara xoş arzularını bildirmiş, ağbirçəklərin həyat şəraiti ilə yaxından tanış olmuş, qadınlara bayram sovqatları təqdim etmişlər.

III və IV Qadın Qurultaylarında təşkil olunan sərgidə əlil qadınların da əl işləri nümayiş olunmuşdur.

2012-ci ildə “İnkişaf” Sosial-İqtisadi Araşdırmalar İctimai Birliyi ilə birgə Əmək və Müharibə Veteranları üçün Pansionatda 160 saylı klassik gimnaziyanın şagirdlərinin yaşlı nəslin nümayəndələri ilə görüşü keçirilmişdir. Görüş zamanı həmçinin gənc müğənni Elşən Osmanov və 160 saylı klassik gimnaziyanın şagirdləri konsert proqramı ilə çıxış etmişlər.

2012-ci ildə Beynəlxalq Qadınlar Gününə həsr edilmiş bayram tədbiri keçirilmişdir. Tədbir zamanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi dəstəyi ilə nəşr edilmiş “Əlilliyi olan qadınlar üçün sağlamlıq haqqında stolüstü kitab”ın təqdimatı olmuşdur.

2013-cü ildə Beynəlxalq Qadınlar Gününə həsr edilmiş bayram tədbiri keçirilmişdir. Tədbir başlamazdan öncə foyedə əlil qadınların əl işlərindən ibarət sərgiyə baxış keçirilmişdir. Əlillərə köməklik məqsədilə sərgidə nümayiş olunan əl işlərinin satışı təşkil olunmuşdur.